Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**ANZİBEL®** sorma pastillər
ANZIBEL®

**Tərkibi**
*Təsiredici maddələr:* 1 pastilin tərkibində 5 mq xlorheksidin dihidroxlorid, 4 mq benzokain, 3 mq enoksolon vardır.
*Köməkçi maddələr*: sorbitol (Sorbidex S16606), kalium asesulfam, maqnezium stearat.
Bal və limon dadlı: bal aromatizatoru, limon aromatizatoru.
Mentol dadlı: mentol aromatizatoru.
Biyan dadlı: biyan (Liquorice PF 1062).
Exinaseya dadlı: exinaseya (Echinacea Herb. P.E.), lak idalakol qəhvəyi şokolad.
Zəncəfil dadlı: zəncəfil tozu, titan dioksid, talk.

**Təsviri**
Anzibel®– dairəvi, ikitərəfli qabarıq pastillərdir, bir tərəfi hamar, digərində isə Nobel emblemi həkk olunmuşdur. Sadə və mentol dadlı pastillər ağ rəngdə, bal-limon dadlı pastillər açıq fil sümüyü rəngdə, biyan və zəncəfil dadlı pastillər ağ-krem rəngdə, exinaseya dadlı pastillər isə qəhvəyi rəngdədir.

**Farmakoterapevtik qrupu**
Boğaz xəstəliklərində istifadə olunan preparatlar. Antiseptiklər.
**ATC kodu:** R02AA.

**Farmakoloji xüsusiyyətləri**
***Farmakodinamikası***
Anzibel® tərkibində olan aktiv maddələr bir-birini tamamlayır: xlorheksidinin antiseptik təsiri, enoksolonun iltihabəleyhinə təsiri və benzokainin yerli anestetik təsiri orofarinqeal (ağız-udlaq) nahiyəsinin selikli qişasında qıcıqlanma səbəbindən yaranan narahatlığı aradan götürür.
Xlorheksidin aerob və anaerob, qram-mənfi və qram-müsbət bakteriyalara qarşı antiseptik təsirə malikdir.
O, aşağı konsentrasiyada bakteriostatik, yüksək konsentrasiyada isə bakterisid təsir göstərir.
Kation təbiəti ilə əlaqədar xlorheksidin törədici mikroorqanizmlərin bakterial hüceyrənin səthinə sıx bağlanılır və hüceyrə membrananı zədələyərək onun keçiriciliyini artırır.
Benzokain mürəkkəb efir tipli yerli anestetikdir. Benzokain anestetik təsirini neyron hüceyrələrin membranaların natrium ionlarına qarşı keçiriciliyini azaltma nəticəsində sinir impulslarının stimulyasıyasını və ötürülməsini blokadaya almaqla həyata keçirir.
Enoksolon selikli qişada iltihabəleyhinə təsir göstərir. Enoksolon, kortizolu inaktivləşdirən, 11β-hidroksisteroid dehidrogenazanın güclü inhibitorudur, lakin qlükokortikosteroidlərə xas olan əlavə təsirlərə səbəb olmur.
***Farmakokinetikası***
Xlorheksidin mədə-bağırsaq sistemindən və ağız boşluğunda çox zəif sorulur.
Benzokain selikli qişalardan sistem qan dövranına çox az miqdarda sorulur. Benzokain mürəkkəb efir tipli anestetik olaraq, esterazaların təsirindən plazmada və daha az dərəcədə qaraciyərdə hidrolizə olunur. Əksər efir tipli anestetiklərin proteinlə birləşməsi aşağıdır.
Peroral qəbulu zamanı enoksolon mədə-bağırsağ sistemindən tədricən sorulur və çox zəif sistem təsirə malikdir.

**İstifadəsinə göstərişlər**
Anzibel® ağız və udlaq nahiyəsinin yüngül infeksiyası və iltihabı zamanı yerli müvəqqəti simptomatik müalicə üçün istifadə olunur.

**Əks göstərişlər**
Anzibel® pastillərinin tərkibinə daxil olan hər hansı bir maddəyə və ya anesteziyaedici mürəkkəb efir törəmələrinə qarşı yüksək həssaslığı olan xəstələr bu preparatı istifadə etməməlidirlər. Fenilketonuriyası olan xəstələr istifadə etməməlidirlər.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
Nəzərə alınmalıdır ki, preparatın tərkibində benzokain var, bu da dopinq testdə müsbət nəticə alınmasına səbəb ola bilər.
Preparatın tərkibində şirinləşdirici vasitə kimi sorbitol var. Fruktozaya qarşı irsi həssaslığı olan xəstələr Anzibel® preparatını istifadə etməməlidirlər.
Preparatın tərkibində şirinləşdirici kimi asesulfam kalium var. Böyrək funksiyalarının zəifləməsi və ya nəzarət olunan kalium pəhrizinə riayət edən xəstələr bunu nəzərə almalıdırlar.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Anzibel® tərkibində antiseptik maddə olan digər preparatlar ilə birgə istifadə olunmamalıdır.
Heyvanlar üzərində aparılan tədqiqatlar zamanı aydın olmuşdur ki, enoksolonun hidrokortizonla birgə istifadəsi zamanı dəridə sonuncunun aktivliyi artır.
Xolinesterazanın inhibitorları benzokainin və digər yerli anestetiklərin metabolizmini inhibə edərək sistem toksikliyin yaranma riskini artırır.
Benzokainin metabolitləri sulfanilamid preparatların antibakterial təsirinə antaqonist təsir göstərə bilərlər.
Bentiromid istifadəsi ilə mədəaltı vəzinin funksiyasını müəyyənləşdirən testin aparılmasından ən azı 3 gün əvvəl müalicənin dayandırılması tövsiyə olunur, çünki, benzokain alınacaq nəticələrə təsir edə bilər.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Hamiləlik və laktasiya dövründə Anzibel® pastillərin istifadəsi məsləhət görülmür.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri məlum deyil.

**İstifadə qaydası və dozası**
*Böyüklər və 12 yaşdan yuxarı uşaqlarda məsləhət görülən doza*
Bir pastili 2-3 saat interval ilə ağızda tam həll olana qədər, asta sormaq lazımdır. Maksimal gündəlik doza 8 pastil təşkil edir.
*6-12 yaş arası uşaqlarda məsləhət görülən doza*
Bir pastili 4-5 saat interval ilə ağızda tam həll olana qədər, asta sormaq lazımdır. Maksimal gündəlik doza 6 pastil təşkil edir.
Pastilləri çeynəməyin və ya bütöv udmayın. Pastillər ağız boşluğunda tədricən əriməlidirlər.
Simptomların ağırlaşması və ya iki gündən artıq davam etməsi halında həkim konsultasiyasına ehtiyac var.

**Əlavə təsirləri**
Nadir hallarda ümumi allergik reaksiyalar və həzm sistemində narahatlıqlar əmələ gələ bilər.
Yüksək dozada və ya xroniki istifadəsi zamanı ödem və hipertoniya halları müşahidə oluna bilər.
Diş ərpi olan xəstələrdə dişlərin müvəqqəti yüngül piqmentasiyasına səbəb ola bilər. Nadir hallarda disgevziya (dadbilmə dəyişməsi) baş verə bilər, lakin bu hal tədricən müalicənin davamında yox olur.

*DƏRMAN QƏBULU ZAMANI GÖZLƏNİLMƏZ REAKSİYALAR YARANDIQDA HƏKİMİNİZƏ MÜRACİƏT EDİN!*

**Doza həddinin aşması**
Tövsiyə olunan dozaya riayət olunduqda doza həddinin aşılması ehtimalı yoxdur.

**Buraxılış forması**
Sadə, mentol, bal-limon, biyan, exinaseya və zəncəfil dadlı Anzibel® pastilləri ağ qeyri-şəffaf PVC-PE-PVDC/Al folqalı blisterlərdə. 2 pastil (1 blister), 10 pastil (1 blister), 20 pastil (2 blister) və ya 30 pastil (3 blister) içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
25 °C-dən aşağı temperaturda orijinal qutusunda və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
2 il (biyan, exinaseya, zəncəfil dadlı Anzibel®).
3 il (sadə, mentol, bal-limon dadlı Anzibel®).
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
NOBEL İLAÇ SANAYİİ VE TİCARET A.Ş.
Sancaklar 81100 Düzce/Türkiye.

**Lisenziya sahibi**
NOBEL İLAÇ SANAYİİ VE TİCARET A.Ş.
Ümraniye 34768 İstanbul/Türkiye.